# GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

SAYI 23-24 (13.393)
CÜMƏ 28 MART 2025-ci il

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივი-პოლიტიკური კვირეული გაზეთი


E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## DÖVLƏT RƏSMİLƏRİNİN İŞTİRAKI İLƏ MARNEULİDƏ TƏNTƏNƏLİ NOVRUZ ŞƏNLİYİ KEÇİRİLİB

21 mart tarixində Marneulidə Novruz Bayramı münasibətilə bayram tədbiri keçirilib. Şənlikdə yerli sakinlərlə yanaşı dövlət və hökumət nümayəndələri də iştirak ediblər. Tədbirdə Prezident Mixeil Kavelaşvili, Baş nazir İrakli Kobaxidze, Parlamentin sədri Şalva Papuaşvili, Ombudsman Levan İoseliani, Barışıq və Vətəndaş Bərabərliyi üzrə Dövlət naziri Tea Axvlediani, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay, eləcə də Gürcüstan parlamentinin deputatları, digər dövlət və hökumət rəsmiləri iştirak ediblər. Qonaqlar əvvəlcə müxtəlif



stendlərə baş çəkərək azərbaycanlılara məxsus mədəniyyət, incəsənət, kulinariya nümunələri ilə tanış olublar. Daha sonra rəsmilərin iştirakı ilə bayram tonqalı alovlandırılıb. Səhnədə çıxış edən hökumət rəhbərləri bayram münasibətilə təbriklərini çatdırıb, əhaliyə sülh və əmin-amanlıq arzu ediblər. Baş nazir gürcülərlə azərbaycanlılar arasında möhkəm dostluq əlaqələrinin olduğunu vurğulayıb. O, Gürcüstanda möhkəm həmrəyliyə və birliyə nail olunduğunu qeyd edib. Rəsmi hissədən sonra bayram şənliyi konsertlə davam edib. Tədbirdə yerli və Azərbaycandan dəvət olunmuş incəsənət xadimləri də iştirak ediblər.

## İRAKLİ KOBAXİDZE İLHAM ƏLİYEVİ TƏBRİK EDİB

Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Novruz bayramı münasibətilə təbrik ünvanlayıb.

İrakli Kobaxidzenin təbrik məktubu **President.az** saytında dərc olunub.

Məktubu olduğu kimi təqdim edirik:

***"Azərbaycan Respublikasının Prezidenti Zati - aliləri cənab İlham Əliyevə.***

***Zati - aliləri,***

***İcazə verin, Gürcüstan hökuməti və gürcü xalqı adından Sizi Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edim. Bu bayram yeni həyat, birlik, rifah rəmzidir və bizim ölkələr arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq kontekstində əhəmiyyət kəsb edir. Sizə və Azərbaycan xalqına sülh, əmin-amanlıq, rifah arzulayır və ən xoş arzularımı çatdırıram.***

***Gürcüstan və Azərbaycan Respublikası arasında mövcud olan əlaqələrin səviyyəsini yüksək qiymətləndirirəm. Bu əlaqələr xalqlarımız arasında mövcud olan ənənəvi səmimi və mehriban qonşuluq münasibətlərinin təzahürüdür. Ümumi regional maraqlarla şərtlənən, ölkələrimiz arasındakı müxtəlif sahələrdə səmərəli və çoxtərəfli əməkdaşlığımız nümunəvidir və xalqlarımızın rifahı və inkişafı üçün möhkəm zəmin yaradır.***

***Əminəm ki, mövcud əməkdaşlığımız birgə səylərimizlə daha da möhkəmlənəcək. Qlobal çağırışlar fonunda regionda sülh və sabitliyin qorunub saxlanılması üçün bizim əməkdaşlığımızın olduqca böyük əhəmiyyət kəsb etdiyini bir daha vurğulamaq istərdim.***

***Zati - aliləri. Fürsətdən istifadə edərək, bir daha Sizə ən yüksək ehtiramımı ifadə edirəm".***

## GÜRCÜSTANIN BAŞ NAZİRİ AZƏRBAYCANLILARI NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ TƏBRİK EDİB

Gürcüstanın Baş naziri İrakli Kobaxidze azərbaycanlı soydaşlarımızı və dünya azərbaycanlılarını Novruz bayramı münasibətilə təbrik edib.

Baş nazir Azərbaycan vətəndaşlarına da müraciət edərək, onlara sülh və firavanlıq arzulayıb.

*"Novruz bayramı yenilənmə, xeyirxahlıq bayramıdır. Biz xristianlarla müsəlmanları, gürcüləri və azərbaycanlıları birləşdirən çoxəsrlik birgəyaşayış, dostluq münasibəti ilə fəxr edirik. Bu, həqiqətən də qürurverici bir münasibətdir, dostluqdur. Uzun illərdir ki, biz birgə ölkəmizin gələcəyini yaradırıq.*

*Bu tarix bu gün də davam edir və bu gözəl ənənədir ki, biz Novruz bayramını bizim uşaqlara, gələcək nəsillərə ötürməliyik. Sizə ən xoş diləklər, sülh və firavanlıq arzulayıram",* - deyə hökumət başçısı bildirib.

## DÖVLƏT NAZİRİ TEA AXVLEDİANİ NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ LAQODEXİDƏ KEÇİRİLƏN TƏDBİRLƏRDƏ İŞTİRAK EDİB

Tea Axvlediani Laqodexi bələdiyyəsinin Qabal kəndində etnik azərbaycanlı əhaliyə müraciət edərək onları Novruz bayramı münasibətilə təbrik edib. Sonra Dövlət naziri Laqodexi şəhərinin meri Condo Mdivnişvili, parlamentin deputatı Quram Maçaraşvili və yerli özünüidarəetmə orqanlarının nümayəndələri ilə birlikdə Bayramı qeyd etmək üçün Laqodexi bələdiyyəsinin Uzuntala kəndində yaradılmış etnik guşələrə baş çəkib, yerli sahibkarların musiqi alətləri və rəsm əsərlərinə, Novruzla bağlı xalq sənətkarlıq nümunələrinə baxıb.




Nazir yerli gənclər şuralarının nümayəndələri ilə görüşüb, onların fəaliyyəti ilə tanış olub. Tea Axvlediani mədəni və idman tədbirlərində də iştirak edib, qol güləşi turnirinin qaliblərinə simvolik hədiyyələr təqdim edib. Dövlət nazir gənclərlə birlikdə tonqalqalama mərasimində də iştirak edib.

*"Şadam ki, bu gün Kaxeti bölgəsində Novruz bayramını Qabal kəndinin əhalisi ilə birlikdə qeyd etmək fürsəti əldə etdim və buradan bu çoxəsrlik bayramı qeyd edən hər birinizi təbrik etmək istəyirəm. Tarixən etnik və mədəni müxtəlifliyi, zəngin ənənələri və mədəniyyətlərarası əlaqələrin qorunması, gücləndirilməsi və inteqrasiya siyasətimizin əsas vəzifələrindən biridir. Novruz Bayramını birlikdə qeyd etmək və bu bayram sevincini bölüşmək bunun simvolik ifadəsi və təsdiqidir",*- deyə Dövlət naziri Tea Axvlediani bildirib.

Qabal kəndində Novruz bayramı şənliyi yerli və dəvət olunmuş ifaçıların konserti ilə başa çatıb.

## APRELİN 1-dən ÖLKƏMİZİN QANUNVERİCİLİYİNDƏ BİR SIRA DƏYİŞİKLİKLƏR QÜVVƏYƏ MİNƏCƏK

**1.** 2025-ci il aprelin 1-dən yetkinlik yaşına çatmayanların "112" xidmətinə məqsədsiz zənginə görə cərimə tətbiq ediləcək. Aprelin 1-dən etibarən valideynlərin və ya qanuni nümayəndələrin yetkinlik yaşına çatmayan uşaqların tərbiyəsi və təhsili ilə bağlı öhdəliklərini yerinə yetirməməsinə görə inzibati məsuliyyət müəyyən ediləcək. Bura yetkinlik yaşına çatmayanların "112" fövqəladə



xidmətinə əsassız zəng etməsi də daxildir.

Valideynin və ya qanuni nümayəndənin uşağa düzgün nəzarət etməməsi, onun təhsili və rifahı üçün lazım olan şəraiti təmin etməməsi, narkotik maddə istifadəsinə yol verməsi, heyvanlara qarşı qəddar davranışı, ictimai asayişi pozması, alkoqollu içkilər içməsi, tütün məhsulları ilə bağlı qaydaları pozması, soyuq silah gəzdirməsi və ya digər qanunsuz əməllər törətməsi kimi hallar da bu məsuliyyətə daxildir. Bu qaydaların pozulmasına görə valideyn və ya qanuni nümayəndə 100-300 lari məbləğində cərimələnəcək.

**2.** 2025-ci il aprelin 1-dən Gürcüstanda siqaret yalnız sadə qablaşdırmada satılacaq. Yeni qaydalar elektron siqaretlərə aid deyil. Məlumata görə, tütün məhsullarının standart qablaşdırma olmadan satışı və bu qaydanın pozulması 5000 lari məbləğində cərimə ilə nəticələnəcək.

**3.** 2025-ci il aprelin 1-dən pirotexnika məhsulları ilə bağlı qaydaların pozulmasına görə cərimələr tətbiq ediləcək. Pirotexniki məhsulu onu saxlamağa və ya istifadə etməyə icazəsi olmayan şəxsə satmaq 2000 lari cərimə ilə nəticələnəcək. Həmin məhsulu icazəsi olmayan şəxsin alması 1000 lari cərimə ilə cəzalandırılacaq.

**4.** 2025-ci il aprelin 1-dən Dövlət Xidməti Bürosu ləğv ediləcək. Parlament bu qərarı fevralın 20-də təsdiqləyib.

Ləğv edildikdən sonra büronun funksiyaları və səlahiyyətləri Gürcüstan hökumətinin administrasiyasına veriləcək. Büro əməkdaşları isə bir aylıq maaş miqdarında kompensasiya alacaqlar.

## PARLAMENT BİRİNCİ OXUNUŞDA TƏSDİQLƏDİ: GÜRCÜSTANDA NARKOTİKLƏRLƏ BAĞLI CƏZALAR SƏRTLƏŞDİRİLİR



*Parlament "Gürcü Arzusu" fraksiyasının təqdim etdiyi qanun layihəsini birinci oxunuşda 83 səslə qəbul edib.*

Layihə narkotik maddələr, o cümlədən kannabis və marixuana ilə bağlı cinayətlərə görə məsuliyyətin sərtləşdirilməsini nəzərdə tutur.

Bu dəyişikliklər hüquq pozuntuları və cinayətləri tənzimləyən səkkiz müxtəlif qanuna, o cümlədən Cinayət Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi və Mütəşəkkil Cinayətkarlıq və Reket haqqında Qanuna daxil ediləcək.

Qanun layihəsinə əsasən:

•Məhkəmələrə narkotik asılılığı olan şəxslərə əgər həmin şəxslər cinayət törədirsə, məcburi müalicə təyin etmək səlahiyyəti veriləcək.

Cinayət Məcəlləsinə yeni maddələr əlavə olunacaq və narkotiklərlə bağlı cinayətlərin tərkibi genişləndiriləcək.

Cəza müddətləri artırılacaq və daha sərt cəzalar tətbiq ediləcək.

Cinayət və inzibati cəzaların sərtləşdirilməsi:

•Psixotrop maddələrin, kannabisin, marixuananın və digər narkotik vasitələrin istehsalı, saxlanması, daşınması və satışı ilə bağlı cəza müddətləri artırılır.

•Narkotik maddələrin qanunsuz hazırlanması, alınması, saxlanması, daşınması və istifadəsi inzibati məsuliyyətə cəlb ediləcək.

•Kiçik miqdarda narkotik maddə ilə bağlı qanunsuz əməl törədən şəxslər 500-2000 lari arasında cərimə ediləcək və ya 60 günə qədər inzibati həbs cəzası ala bilər.

•Bu qanun pozuntularına yol verən şəxslərin silah gəzdirmə və nəqliyyat vasitəsi idarəetmə hüquqları 3 il müddətinə məhdudlaşdırılacaq.

Bundan əlavə, qanun layihəsində:

•Narkotik alveri və narkotik satıcısı anlayışları dəqiq müəyyən edilir.

•Narkotik satıcısının ailə üzvləri, yaxın qohumları və əlaqəli şəxslərin kimlər ola biləcəyi müəyyən olunur.

•Narkotik ticarətindən əldə edilən əmlakın hüquqi statusu dəqiqləşdirilir.

Bu qanunvericilik paketi "Gürcü Arzusu" və "Xalqın Gücü" partiyalarının deputatları tərəfindən irəli sürülüb.

## PARLAMENTDƏ ETİMAD QRUPU YARADILIB

*XI çağırış Parlamentində Etimad Qrupu formalaşdırılıb.*

Parlamentin Etimad Qrupuna Müdafiə və Təhlükəsizlik Komitəsinin sədri Aleksandre Tabatadze rəhbərlik edəcək.

**Qrupda:** İqtidar partiyasının – "Gürcü Arzusu"nun kvotası ilə Arçil Gorduladze və Tenqiz Şarmanaşvili, müxalifət üçün ayrılmış kvota ilə "Xalqın Gücü" partiyasının deputatı Viktor Caparidze təmsil olunacaq.

Etimad Qrupu parlamentin tərkibində fəaliyyət göstərən bir struktur olaraq, Müdafiə və Təhlükəsizlik Komitəsinin nəzdində təhlükəsizlik sektorunun fəaliyyətinə nəzarət etməklə məşğul olacaq.



## ƏHALİYƏ XƏBƏRDARLIQ: "CƏRİMƏ 500-1300 LARİ OLACAQ"



***Kənd təsərrüfatı sahələrində bitki qalıqlarının yandırılması təhlükəli və cəzalandırılan bir hərəkətdir.***

Bu barədə Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin Ətraf Mühitə Nəzarət Departamenti tərəfindən xəbərdarlıq edilib.

Qurumun yaydığı məlumata görə, statistika göstərir ki, fermerlərin məsuliyyətsiz davranışı nəticəsində təsərrüfat sahələrində bitki qalıqlarının yandırılması onlarla hektar əkin sahəsinin yanmasına və onlarla kilometr küləkdən qoruyucu zolağın məhv olmasına səbəb olub.

*"Təəssüf ki, dəfələrlə edilən xəbərdarlıqlara baxmayaraq, fermerlər yaz əkin işlərinə başladıqda hələ də bu zərərli təcrübədən istifadə edirlər. Bu, küləkdən qoruyucu zolaqlara və ətraf infrastruktur obyektlərinə təhlükə yaradır, torpağın xüsusiyyətlərini pisləşdirir, məhsuldarlığın azalmasına və nəticədə torpağın deqradasiyasına səbəb olur. Fermerlər tərəfindən törədilən süni yanğınlar ətraf mühitə, biomüxtəlifliyə ciddi ziyan vurur və səhralaşmanı sürətləndirir.*

*Buna görə də, kənd təsərrüfatı sahələrində bitki qalıqlarının yandırılması qanunla qadağan olunmuş bir əməl hesab olunur. Hüquq pozuntusunun dərəcəsindən asılı olaraq, 500 laridən 1300 lariyə qədər cərimə tətbiq edilir və əlavə olaraq ətraf mühitə vurulan ziyanın məbləği də ödənilməlidir. Statistik məlumatlar göstərir ki, fermerlərin məsuliyyətsiz davranışı nəticəsində təsərrüfat sahələrində törədilən yanğınlar onlarla hektar əkin sahəsinin məhv olmasına və küləkdən qoruyucu zolaqların sıradan çıxmasına səbəb olub. Ətraf Mühitə Nəzarət Departamentinin əməkdaşları belə halların baş vermə ehtimalı olan ərazilərə ciddi nəzarət edəcəklər. Qanun pozuntusu aşkarlandığı halda, qanunvericiliyə uyğun tədbirlər görüləcək"*, - deyə məlumatda bildirilir.

## SON İKİ AYDA YOL QAYDALARININ POZULMASINA GÖRƏ 24,784 MİLYON LARİ CƏRİMƏ YAZILIB

***2025-ci ilin yanvar-fevral aylarında yol hərəkəti qaydalarının pozulmasına görə yazılmış cərimələrdən büdcəyə 24 784 839.0 lari daxil olub.***

Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 28% azdır. 2024-cü ilin ilk iki ayında bu cür cərimələrin məbləği 34 506 121.0 lari təşkil edib.

Bu barədə Maliyyə Nazirliyinin büdcə gəlirlərinə dair məlumatında qeyd olunub.

Ümumilikdə sanksiyalar, faizlər və cərimələrdən daxil olan gəlirlərə gəldikdə isə burada da 28.7%-lik azalma müşahidə olunur.

Rəqəmlərə əsasən, 2025-ci ilin yanvar-fevral aylarında ümumi pozuntulara görə dövlət büdcəsinə 43 505 531.0 lari daxil olub. Müqayisə üçün, 2024-cü ilin eyni dövründə bu göstərici 61 008 281.0 lari təşkil edirdi.




Bundan əlavə, cari ilin ilk iki ayında Tbilisidə parklanma qaydalarının pozulmasına görə yazılan cərimələr ötən ilin eyni dövrü ilə müqayisədə 52% azalıb. Daha dəqiq desək, 2025-ci ilin yanvar-fevral aylarında düzgün olmayan parklanmalara görə 1 416 079.0 lari məbləğində cərimə yazılıb. Halbuki 2024-cü ilin eyni dövründə bu rəqəm 2 931 627.0 lari idi.

Hesabat dövründə biletsiz sərnişindaşımaya görə yazılan cərimələrin məbləği isə 227 472.0 lari təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 58.4% azdır. Maliyyə Nazirliyinin mə-lumatına əsasən, 2024-cü ilin yanvar-fevral aylarında bu sahəyə görə 547 100.0 lari cərimə tətbiq edilmişdi.

## Sitat guşəsi



"Avrointeqrasiyaya və danışıqların başlanmasına gəldikdə, hazırda mürəkkəb bir vəziyyət mövcuddur. Avropa bürokratiyası öz bəyanatlarının girovuna çevrilib və bu bəyanatlardan necə azad olacağını bilmir".

**İrakli Kobaxidze,**
**Gürcüstanın Baş naziri.**



"Bu kimi şeylər Üçüncü Dünya müharibəsinə səbəb ola bilər. Məncə, indi qismən nəzarət altındadır. Putinlə və Zelenski ilə əslində yaxşı münasibətim var. Bunu dayandırmaq əla olardı".

**Donald Tramp,**
**ABŞ-nin Prezidenti.**



"Bu dəfəki Novruz ölkəmizdə xüsusi şənlik şəraitində qeyd olunub. Biz Novruzun Türkiyədə rəsmi bayram elan edilməsinin tərəfdarıyıq".

***R. T. Ərdoğan,***
***Türkiyənin Prezidenti.***



"Mən şadam ki, Ermənistan və Azərbaycan sülh sazişinin yekun mətni üzərində razılığa gəliblər. Ümid edirəm ki, o, tezliklə imzalanacaq və beləliklə, Cənubi Qafqazda davamlı sülhün bərqərar olmasına öz töhfəsini verəcək".

***Papa Fransisk,***
***Roma Papası.***



"Elə bir çağırış yoxdur ki, biz onu dəf edə bilməyək, elə bir maneə yoxdur ki, məqsədimizə sədaqət və ideallarımıza inamla aşmaq mümkün olmasın. Qətiyyət, zəhmət və ortaq arzularımızla biz daha güclü, firavan və mütərəqqi Pakistan qurmağa davam edəcəyik".

***Şahbaz Şərif,***
***Pakistanın baş naziri.***



"İsraili dayandırmadan bölgədə sülh mümkün deyil. Əsas məqsədimiz Qəzzada dağıntıları dayandırmaq və daimi atəşkəs yaratmaq olmalıdır. İsrailə təzyiq artırılmalıdır".

***Hakan Fidan,***
***Türkiyənin xarici işlər naziri.***

## REGİON XƏBƏRLƏRİ

### Rustavi: YAPONİYALI CÜDOÇUDAN USTAD DƏRSİ



***Rustavi İdman sarayında mühüm idman tədbiri - əfsanəvi yapon cüdoçu Şohey Ononun ustad dərsi keçirilib.***

Ustad dərsindən iki gün əvvəl yaponiyalı idmançı Rustavinin meri Nino Latsabidze, Rustavi və Qardabaninin Gürcüstan parlamentindəki nümayəndəsi İrakli Şatakişvili ilə görüşüb.

Nino Latsabidze Şohey Ononu İdman Sarayına və muzeyə ekskursiyaya aparıb. İkiqat Olimpiya və üçqat dünya çempionu Rustavi İdman Muzeyinə imzalı kimono hədiyyə edib.

Martın 24-də Rustavi İdman Sarayında Şohey Ononun ustad dərsi başlayıb. Dərs ödənişsiz və Gürcüstanın bütün regionlarından olan idmançılar üçün açıq olub.

Bildiririk ki, Şohey Ono Gürcüstana veteran cüdoçular Varlam Liparteliani və Avtandil Çikişvilinin dəvəti ilə gəlib.

### Marneuli: İFTAR SÜFRƏSİ AÇILIB



***Marneuli Bələdiyyəsinin yerli özünüidarəetməsi, Ramazan ayına hörmət əlaməti olaraq müsəlman icması üçün iftar süfrəsi açıb.***

Marneuli Bələdiyyəsinin meri Kənan Ömərov, Gürcüstan Parlamentinin üzvü Zaur Darğallı, Marneuli Bələdiyyə Məclisinin sədri Amiran Qiorqadze, Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şeyxi Faiq Nəbiyev, Şərqi Gürcüstanın müftisi Etibar Eminov, diplomatik korpusun nümayəndələri yerli sakinlər qarşısında çıxış edərək müsəlman əhalisini müqəddəs Ramazan ayı münasibətilə təbrik ediblər.

İftar süfrəsində din xadimləri, yerli özünüidarəetmənin nümayəndələri, Marneuli Bələdiyyə Məclisinin üzvləri, yerli möminlər və dəvət olunmuş qonaqlar iştirak ediblər.

### Saqareco: MER AVTANDİL QULİKAŞVİLİ DÖVLƏT QORUĞU İDARƏSİNİN ƏMƏKDAŞLARI İLƏ GÖRÜŞÜB



***Saqareco Bələdiyyəsinin meri Avtandil Qulikaşvili birinci müavini Emzar Kuçuaşvili ilə birlikdə Beynəlxalq Meşələr Günü münasibətilə Mariamcvari Dövlət Qoruq İdarəsinin əməkdaşlarına baş çəkərək, onları peşə günü münasibətilə təbrik edib və simvolik hədiyyələr təqdim edib.***

İdarənin direktoru Zviad Tiqinaşvili qonaqlara Beynəlxalq Meşələr Günü, Gürcüstan meşələri, onların əhəmiyyəti və iqlim dəyişikliyi kontekstində qoruyucu funksiyalar haqqında maraqlı məlumatlar verib. Bundan əlavə, Gürcüstan meşələrinin mühafizəsindəki qorunan ərazilərin rolu haqqında da fikirlər səsləndirilib.

O, xüsusi mühafizə olunan ərazilərin yaradılması tarixindən və adları Tsiv-Qombori qoruğunda iki turizm cığırına verilmiş həmvətənlərimiz, görkəmli alimlərimiz—professor Zakaria Kurdiani və akademik Vasil Qulisaşvilinin xüsusi mühafizə olunan ərazilər sisteminin yaradılmasında rolundan danışıb. O, mühafizəçilər və qonaqlarla birlikdə administrasiyanın qarşısında duran vəzifələri və onların həlli yollarını müzakirə edib.

### Qardabani: NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ SOSİAL LAYİHƏ HƏYATA KEÇİRİLİB

***Qardabani Bələdiyyə Meriyasının təşkilatçılığı ilə bələdiyyə ərazisində yaşayan aztəminatlı azərbaycanlı ailələrə Novruz bayramı münasibətilə ərzaq yardımları təqdim olunub.***



Layihə çərçivəsində 150 aztəminatlı ailə Novruz bayramı münasibətilə ərzaq yardımı alıb. Yardım paketlərinə gündəlik istifadə olunan əsas ərzaq məhsulları daxildir və onların hazırlanması, ailələrə çatdırılması prosesində müxtəlif dövlət və yerli idarəetmə strukturlarının nümayəndələri fəal iştirak ediblər.

Aksiyada iştirak edənlər arasında Gürcüstan Parlamentinin deputatı Savalan Mirzəyev, Qardabani Bələdiyyəsinin meri Davit Karqareteli, merin müavini Fuad Mirzəyev, bələdiyyə sədrinin birinci müavini Samir Xiyalov və yerli özünüidarəetmə nümayəndələri də yer alıblar. Onlar yardımların bölgüsü prosesində iştirak edib, sakinlərlə görüşüblər və bayram münasibətilə təbriklərini çatdırıblar

## BEYNƏLXALQ HƏYAT

### YENİ BAŞ NAZİR TRAMPLA DANIŞIQLAR ÜÇÜN ŞƏRT QOYUB



***Kanadanın baş naziri Mark Karni ABŞ prezidenti Donald Trampla müxtəlif məsələlərdə danışıqlara başlamağa hazır olduğunu bildirib.***

Karni danışıqlar üçün, ABŞ prezidentinin Kanadanın suverenliyini tanımasını şərt qoşub.

*"Mən bunu etməyə tam hazıram. Lakin bir şərt var; o Kanadanın suveren ölkə olduğunu etiraf etməlidir. Biz daha geniş müzakirəyə başlamazdan əvvəl bunu deməli və qəbul etməlidir"*, - deyə Karni jurnalistlərə bildirib.

Qeyd edək ki, Tramp dəfələrlə bir çox kanadalının öz ölkələrinin ABŞ-nin 51-ci ştatı olmasını istədiyini deyib.

### ABŞ İRANA QARŞI DÖYÜŞ ƏMƏLİYYATLARINA ƏL ATA BİLƏR

***ABŞ müəyyən şəraitdə İrana qarşı döyüş əməliyyatları apara bilər.***



Bu barədə "Fox News" telekanalına müsahibəsində ABŞ Prezidentinin xüsusi elçisi Stiven Uitkoff bildirib.

*"Biz bütün məsələləri hərbi yolla həll etməyə ehtiyac duymuruq, lakin bu o demək deyil ki, əgər bizi müəyyən bir həddə gətirsələr, biz döyüş əməliyyatlarına əl atmayacağıq, biz bunu müəyyən şəraitdə edəcəyik"*, - deyə o, müvafiq suala cavabında bildirib.

Uitkoff əlavə edib ki, ABŞ Prezidenti Donald Trampın mövqeyi "İranın nüvə bombasına sahib olmaması"dır.

*"Biz onların nüvə arsenalı yaratmağa başlamasına imkan verə bilmərik. Bu baş verməməlidir"*, - deyə diplomat qeyd edib.

Bildiririk ki, daha əvvəl oxşar fikri ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Mayk Uolts da səsləndirmişdi.

### ABŞ İRANDAN NÜVƏ PROQRAMINDAN TAM İMTİNA ETMƏSİNİ TƏLƏB EDİR



***ABŞ İrandan nüvə proqramından tamamilə imtina etməsini tələb edir və əks halda Tehranı ciddi nəticələr gözləyir.***

Bu barədə ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Mayk Uolts "CBS News"a müsahibəsində bildirib.

Uolts, ABŞ-nin əvvəlki prezidentləri Barak Obama və Cozef Bayden administrasiyalarının yanaşmalarından fərqli olaraq, İranla "sən mənə – mən sənə" prinsipinin tətbiq edilmədiyini vurğulayıb. O qeyd edib ki, məsələ bütövlükdə nüvə proqramı ilə bağlıdır: "Ya ondan imtina edin, ya da nəticələri olacaq."

Uoltsun sözlərinə görə, İranın nüvə silahı əldə etməsi bütün Yaxın Şərq regionunun silahlanma yarışına cəlb olunmasına gətirib çıxaracaq ki, bu da ABŞ-nin milli təhlükəsizliyi üçün "tamamilə qəbuledilməzdir".

### "SAMSUNG"UN BAŞ DİREKTORU VƏFAT EDİB

***"Samsung Electronics" şirkətinin baş direktoru Han Conq-Hee vəfat edib.***

Şirkət 63 yaşlı Hanın infarkt səbəbilə dünyasını dəyişdiyini açıqlayıb.

Şirkət bildirib ki, keçən ilin noyabrında baş direktor vəzifəsinə təyin edilən Jun Young-hyun yeganə icraçı direktor olacaq. Han 2011-ci ildə "Samsung"un vizual displey bölməsində məhsul tədqiqatı və təkmilləşdirmə qrupunun rəhbəri olub və illər ərzində rütbələri yüksəldikdən sonra 2022-ci ildə şirkətin vitse-prezidenti və baş icraçı direktoru vəzifəsinə təyin edilib.



"Samsung"un bəyanatında deyilir: *"Bu çətin vaxtda onun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk".*

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**HAKƏZA** *zərf [ər.] köhn.* Beləcə, bu surətdə.

**HAKİM** *is. [ər.] 1.hüq.* Məhkəmə orqanlarında baxılan iş haqqında hökm və ya qərar çıxaran vəzifəli şəxs. *Xalq hakimi.*

*Elə bil Zeynal çox xətrini istədiyi bir adamın yox, hakimin suallarına cavab verirdi.*

B. Bayramov.

2. *idm.* Oyunda, yarışda hakimlik edən şəxs. *Futbol hakimi. Hakimin qərarı. Beynəlxalq dərəcəli hakim.*

*Hakimlər əllərindəki* [saniyəölçənləri] *hazır tutub, diqqətlə gözləyirdilər.*

H. Seyidbəyli.

3. *tar.* Bir ölkənin başında duran, onu idarə edən şəxs (padşah, hökmdar, xan və s.).

*Gəncənin hakimi, Qızıl Arslandan aldığı məktubu böyük şair Nizamiyə göstərib dedi…*

M. S. Ordubadi.

**Hakim kəsilmək** – hakim olmaq, təsiri altına almaq.

*Mahnı onların bütün varlığına hakim kəsildi.*

Ə. Məmmədxanlı.

**HAKİMİYYƏT** *is.* İdarə etmək hüququ, siyasi hökmranlıq. *Hakimiyyətin ilk illəri. Hakimiyyəti ələ keçirmə. Hakimiyyət başına gəlmək.*

[Abbas:] *Mən də buna qarşı üsyan elədim, ey Afşin, çünki gördüm ki, hakimiyyətin məhvəri türk qoşun başçılarından Aşnasın əlindədir…*

Ə. Məmmədxanlı.

//Dövlət orqanlarının hüquq və səlahiyyətləri.

**HAQQ**[1] *[ər.]* 1. *sif.* Doğru, düz, düzgün, həqiqi. *Haqq iş.*

*Nahaq söz od vurar qəlbə, fəqət haqq söz keçər daşdan.*

S. Vurğun.

2. *is.* Hüquq, ixtiyar.

*Nə üçün kişilərin istədikləri zaman arvadlarını çıxarıb qovmağa haqqı olur, arvadların öz ərlərindən boşanmaq, başqa ərə getməyə haqqı olmayır?*

S. Hüseyn.

3. *is.* Gördüyü işin müqabilində birinə verilməli olan pul, muzd və s.

*Bir müddət işlədikdən sonra bəy* [Nəbinin] *haqqını kəsir.*

"Qaçaq Nəbi"..

// Üzvü olduğu bir təşkilata və ya bir şeydən istifadə üçün verilməli olan pul, məbləğ. *Üzvlük haqqı. Kirayə haqqı.*

*Ev sahibi ilə görüşdüm, salamatlaşdım, mənzil haqqını artıqlığınca verdim və çıxdım küçəyə.*

C. Məmmədquluzadə.

4. Nisbət şəkilçiləri ilə: barədə (barəsində), xüsusda (xüsusunda) və i.a. *Ailəsi haqqında fikirləşmək.*

[Firidun Südabəyə:] *Açıq deyim ki, sizin haqqınızda qəti bir qərara gələ bilmirəm.*

M. İbrahimov.

5. *is.* İxtiyar, hüquq, əsas. *Bu işə qarışmağa onun haqqı yoxdur.*

*Əvəzin oğlundan böyük şey ummağa haqqı var idi.*

Ə. Vəliyev.

*Aynanın təəccüb etməyə də haqqı var idi.*

İ. Əfəndiyev.

**Haqq oldu** – əcəb oldu, yerində oldu, yaxşı oldu.

*Dərdli Kərəm deyər: Necə olur halım,*
*Sənə lap haqq oldu, ay qanlı zalım.*

"Əsli və Kərəm".

**Haqq vermək** – 1) təsdiq etmək, doğru saymaq, düzgün, haqlı hesab etmək.

[Bəhram:] *Ah, Fitnə, sözünə indi verdim haqq; Neyləyim ki, səni qurutdu torpaq…*

A. Şaiq.

2) haqlı olduğunu təsdiq etmək.

*Şükür indi Güləliyə haqq verirdi.*

S. Hüseyn.

**Haqqına yetmək (çatmaq)** – cəzasını almaq, cəzasına çatmaq.

*Haqq yolunda didərgini,*
*Haqqına yetir, ay Allah!*

M. Araz.

**HAQQ**[2] *is. [ ər. ]* 1. Allah, Tanrı.

*Tək-tək ayılan varsa da, haqq dadıma çatsın,*
*Mən salim olum, cümlə cahan batsa da, batsın.*

M. Ə. Sabir.

2. **Haqqı** şəklində – and olsun, and içirəm.

[Nənəxanım:] *Ay kişi, atanın goru haqqı heç zadım yoxdur. Nəyim var ki, ay başıdaşlının oğlu?*

Çəmənzəminli.

[Leylək Ələmdar:] *Qurani-mürsəl haqqı, mənim bu dükanı dağılan kişinin boğulmağına əsla … gümanım gəlməz.*

S. Rəhimov.

**HAQQ-ƏDALƏT** *is. [ ər. ]* Ədalət, insaf.

*Səninləyəm, haqq-ədalət, səninləyəm,*
*Milli qürur, milli qeyrət, səninləyəm!*

M. Araz.

**HAQQ-HESAB** *is. [ər.]* 1. Hər hansı hesablamanın nəticəsi; hesablama, hesab.

*Hamı işdən çəkilib çıxdığı halda, mühasib çıxmaq istəmir və əlindəki haqq-hesabı başa çatdırmağa çalışırdı.*

S. Rəhimov.

2. Hesabat.

*…Katib haqq-hesab məru-zəsində Gülyanağın adını çəkdi, onu… təriflədi.*

Ə. Vəliyev.

3. Say-hesab.

*Professorun Mehman haqqında olan tərifləri haqq-hesaba gəlməz oldu.*

S. Rəhimov.

**Haqq-hesab çəkmək** – 1) hesabat tələb etmək;

2) hesablamaq, hesab etmək, saymaq.

[Məzahir Qönçəyə:] *Dünən də bir abbasımı kəsmisən, haqq-hesabı düz çək, sonrası yaxşı olmaz.*

B. Bayramov.

3)*məc.* qisas almaq, öc almaq, hesablaşmaq. *O bizimlə haqq-hesab çəkir.*

[Koroğlu:] *Çək atları, yəhərlə, gedib, Həsən xanla haqq-hesabımızı çəkək.*

"Koroğlu".

**Haqq-hesabı çürütmək (üzmək)** 1) aralarında olan məsələni qəti həll edib qurtarmaq.

[Cahandar ağa] *Molla Sadıqla birdəfəlik haqq-hesabı çürütmək istəyirdi.*

İ. Şıxlı;

2) məc. əvəz çıxmaq, intiqam almaq, öc almaq, hesablaşmaq.

[Ağagül Nəcəf bəyə:] Təəssüf ki, səninlə haqq-hesabı çürütməyə vaxt qalmadı, dayı!

Ə. Məmmədxanlı.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

### გაზაფხულის სიხალისე და სილამაზე (Qazapxulis sixalise da silamaze)
### Baharın təravəti və gözəlliyi

**გაზაფხული ბუნების განახლების დროა** (Qazapxuli bunebis ganaxlebis droa) – **Bahar təbiətin yenilənmə vaxtıdır.**

**ზამთრის სუსხის შემდეგ მზე თბილად ანათებს** (Zamtris susxis şemdeq mze tbilad anatebs) – **Qışın soyuğundan sonra günəş istilik saçır.**

**ბალახი მწვანდება, ყვავილები აყვავილდება** (Balaxi mtsvandeba, ğvavilebi ağvavildeba) – **Otlar yaşıllaşır, çiçəklər açır.**

**მთელი ბუნება ცოცხლდება და სურნელით ივსება** (Mteli buneba tsotsxldeba da surnelit ivseba) – **Bütün təbiət canlanır və ətrə bürünür.**

**დილის სუფთა ჰაერი საოცარ სიმშვიდეს გვჩუქნის** (Dilis supta haeri saotsar simşvides qvçuknis) – **Səhərin təmiz havası bizə möhtəşəm sakitlik bəxş edir.**

**ჩიტების გალობა სიცოცხლის სიმბოლოა** (Çitebis qaloba sitsotsxlis simboloa) – **Quşların nəğməsi həyat rəmzidir.**

**ხანდახან ნაზი წვიმა ეშვება და მიწას ახალისებს** (Xandaxan nazi tsvima eşveba da mitsas axalisebs) – **Bəzən narın yağış yağır və torpağı təravətləndirir.**

**გაზაფხულს მხოლოდ ბუნება კი არა, ადამიანებიც გრძნობენ** (Qazapxuls mxolod buneba ki ara, adamianebits qrdznoben) – **Baharı yalnız təbiət deyil, insanlar da hiss edir.**

**ისინი ხალისიანები და ენერგიულები ხდებიან** (İsini xalisianebi da enerqiulebi xdebian) – **Onlar daha şən və enerjili olurlar.**

**ბავშვები ეზოში თამაშობენ, ახალგაზრდები სეირნობენ** (Bavşvebi ezoşi tamaşoben, axalqazrdebi seirnoben) – **Uşaqlar həyətdə oynayır, gənclər gəzintiyə çıxırlar.**

**ქუჩები და პარკები სიცოცხლით ივსება** (Kuçebi da parkebi sitsotsxlit ivseba) – **Küçələr və parklar canlanır.**

**მზე უფრო თბილად ანათებს, ქარი ნაზად ქრის** (Mze upro tbilad anatebs, kari nazad kris) – **Günəş daha isti şəfəq saçır, külək daha həzin əsir.**

**ბუნება სიხარულით სუნთქავს და ყველას აჯადოებს** (Buneba sixarulit suntkavs da ğvelas acadoebs) – **Təbiət sevinc içində nəfəs alır və hər kəsi valeh edir.**

**გაზაფხული იმედისა და ახალი დასაწყისის დროა** (Qazapxuli imedisa da axali dasatsğisis droa) – **Bahar ümid və yeni başlanğıc fəslidir.**

**გისურვებთ, რომ გაზაფხულის სიმხიარულე და სილამაზე თქვენს გულებშიც აყვავილდეს!** (Qisurvebt, rom qazapxulis simxiarule da silamaze tkvens gulebşi ağvavildes!) – **Sizə baharın sevincinin və gözəlliyinin qəlbinizdə də çiçək açmasını arzulayıram!**

## GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

www.sak.ge • ელ. ფოსტა: sak@sak.ge
№2 (9834) 2025 წლის 9 იანვარი, ხუთშაბათი.

24 mart 2025-ci il "SAKARTVELOS RESPUBLİKA"

### Külli miqdarda narkotik maddə üstündə əvvəllər məhkum olunmuş şəxslər həbs edilib

Keçirilən əməliyyat tədbirləri nəticəsində DİN-in Saqareco Rayon Şöbəsinin əməkdaşları külli miqdarda heroini alıb saxlamağa görə əvvəllər məhkum olunmuş aşağıdakı şəxsləri saxlayıblar: 1982-ci il təvəllüdlü Z. C. və 1977-ci il təvəllüdlü V.Q. Şöbənin məlumatına əsasən, cinayətə görə 20 ilədək və ya ömürlük həbs cəzası nəzərdə tutulur.

"Hüquq-mühafizə orqanlarının əməkdaşları narkotik ittihamı ilə həbs edilmiş şəxslərin şəxsi və yaşayış evlərində apardıqları axtarışlar nəticəsində maddi sübut kimi heroin tapıblar. İstintaq Gürcüstan Cinayət Məcəlləsinin 260-cı maddəsinin 3-cü və 6-cı hissələrinə əsasən aparılır", - deyə məlumatda bildirilir.

### Bizim silahımız həqiqətdir!

"Milli Hərəkatın" dünənki hay-küyünün əsas səbəbi Trampın Aydaho ştatında keçirilən seçkilər zamanı respublikaçı Cim Ritçiyə dəstək bəyanatı olub. Təbii ki, Tramp demokratı dəstəkləməzdi. Amma, obyektivlik üçün qeyd olunmalıdır ki, senator Riş "Dərin Dövlət"in agenturasına xüsusi dəstəyi və sözdə "Dərin Dövlət" hekayəsini dilə gətirməyi ilə seçilir.

Müvafiq olaraq, gələcəyə dair sadəcə iki ehtimal ola bilər: ya Cim Riş öz siyasi keçmişindən uzaqlaşacaq (yeri gəlmişkən, Tramp prezident olduqdan sonra həqiqətən də, bizə qarşı gəlməkdən çəkinir), ya da kı "Dərin Dövlət"in hələ də öz mövqelərini qoruyub saxlaması ilə bağlı təəssüf doğuran şübhələr güclənəcək. Gürcüstanın və gürcü cəmiyyətinin ən əsas silahlarından biri həqiqətdir və biz həmişə o barədə ayıq olmalıyıq".

**Mamuka Mdinaradze**

### Veteranlarla memorandum imzalanıb

Martın 21-də Gürcüstanda Jurnalistika Günü münasibətilə Veteranlarla İş üzrə Dövlət Xidməti ilə Gürcüstan Jurnalistlər Federasiyası arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Sənədi Veteranlarla İş üzrə Dövlət Xidmətinin direktoru Koba Kobaladze və Gürcüstan Jurnalistlər Federasiyasının sədri Qiorqi Mamatsaşvili imzalayıblar.

Veteranlarla İş üzrə Dövlət Xidmətində Gürcüstan Jurnalistlər Federasiyasının sədri Qiorqi Mamatsaşvili, Jurnalistlər Federasiyasının nümayəndələri, Gürcüstanın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmiş, müharibə və hərbi mövzuları işıqlandırmış jurnalistlər, tələbələr, operatorlar, fotomüxbirlərlə görüş keçirilib.

Qonaqlar arasında Gürcüstan Jurnalistlər Federasiyasının sədri Qiorqi Mamatsaşvili, Jurnalistlər Federasiyasının sədr müavinləri Caba Xubua və Qoça Xundadze, Jurnalistlər Federasiyasının katibi Teimuraz Koridze; jurnalistlər: Mamuka Areşidze, Tenqiz Paçkoria, Qoqita Melikidze, İrina Qoqosaşvili, Koba Bendeliani, Yuri Meçitov, Beso Çubinidze, Malxaz Qulaşvili, Keti Xomeriki, Eka Qulua, Şahvələd Ayvazov, İrakli Qedenidze, Keti Xositaşvili, Darecan Kvaratsxelia, Qizo Kutidze, Tamuna Duğaşvili, Teymuraz Kvirkvelia, Quram Qorelişvili, Zaira Mikatadze və başqaları olublar.

Görüşdə, eləcə də Veteranlar Xidmətinin nümayəndələri Candri Ubiria, Miron Çiqoqidze, Vladimir İmnadze, Nikoloz Kvezereli və başqaları, vəfat etmiş operator Cano İnadzenin və fotomüxbir Zurab Kurtsidzenin həyat yoldaşları, vəfat etmiş veteranların övladları iştirak ediblər. Jurnalistlər Federasiyasının birgə memorandumu çərçivəsində gələcəyə dair bir necə tədbir anons edilib.

24 mart 2025-ci il "REZONANS"

### "Blumberq"-ABŞ aprelin 20-dək Ukraynada atəşkəsə nail olmaq istəyir, lakin Putin tələsmir

"ABŞ 20 aprel Pasxa bayramına qədər Ukraynada atəşkəsə nail olmaq istəyir, lakin Putin tələsmir", - deyə "Blumberq" nəşrinin yayınladığı məqalədə yazılıb. Nəşrin anonim mənbəyə istinadən yazdığı kimi, Ağ Ev mümkün tarix kimi aprelin 20-ni təyin edib, baxmayaraq ki, Trampın administrasiyasında sözügedən tarixdə atəşkəsə nail olmaq ehtimalı zəif qiymətləndirilir.

Məqalədə qeyd edildiyi kimi, tərəflərin mövqeləri bir çox cəhətdən ziddiyyətli olduğu üçün tarix təxirə düşə bilər. Həmçinin nəşrin mənbəsinin məlumatına görə, sülh razılaşması əldə olunmayana qədər Kreml Trampla Putinin şəxsi görüşünə razı olmayacaq.

"Blumberq" Putinin razılığa gəlməyə tələsmədiyinin sübutu kimi hər iki ölkənin bir-birinin mövqelərinə həyata keçirdiyi və hələ də dayanmayan pilotsuz təyyarə hücumlarını göstərir və həmçinin Rusiya tərəfindən danışıqlar aparan şəxsin Federal Təhlükəsizlik Xidmətinin nümayəndəsi Sergey Beseda olduğunu vurğulayır. Rusiyanın danışıqlarda irəli sürdüyü tələbləri isə "Blumberq" maksimalist adlandırır.

И ПРОГРАММА ТВ! Вечерний Тбилиси + вся ГРУЗИЯ

21-27 mart 2025-ci il "VEÇERNİY TBİLİSİ"

### Avstriya təlimatçıları gürcü həmkarları üçün təlimlər keçiriblər

Fövqəladə Halların İdarə Olunması Xidmətinin saytında yayılan məlumatda deyilir ki, avstriyalı təlimatçılar Xidmət nümayəndələri üçün dağda xilasetmə təlimi keçiriblər.

Təlim həm nəzəri, həm də praktiki hissələri əhatə edib.

Seminar çərçivəsində iştirakçılar zərərçəkmişlərin qar altından çıxarılması, ilkin tibbi yardımın göstərilməsi, uçqun şəraitində xilasetmə işlərinin aparılması, xizək avadanlıqlarının yoxlanılması və s. barədə məlumatlandırılıblar.

Təlimlər Avstriya və Gürcüstan Daxili İşlər Nazirlikləri arasında ikitərəfli əməkdaşlıq çərçivəsində keçirilib.

Təlim başa çatdıqdan sonra iştirakçılara sertifikatlar təqdim olunub.

## SAĞLAMLIĞIMIZI QORUYAQ

# YÜKSƏK QAN TƏZYİQİNİ AZALDAN 6 QİDA MƏHSULU

## BADAM, BİBƏR, KOKOS SÜDÜ, ÇİY KAKAO, ZƏRDƏÇAL (KURKUMA), DARÇIN

*(Əvvəli ötən sayımızda)*

**Zərdəçal (Kurkuma)**



Zərdəçal (kurkuma) zəncəfil (Zingiberaceae) fəsiləsinə aid çoxillik ot bitkisidir. Qalın, şaxəli, ətli və ətrli kök saçaqlarına malik çoxillik otlar yumruşəkilli kökə malikdir; yarpaqları adətən iri və uzunsovdur. Çiçəklər ikicinslidir, müxtəlif rənglərə malikdir. Tək erkəkcik ən böyük periant yarpağının dibində yerləşir. Meyvələr kapsul şəklindədir. Sözügedən bitkinin bir çox növlərinin saçaqları və gövdələrinin tərkibində efir yağları və sarı boyalar (kurkumin) var. Həmin bitkilər ədviyyat və dərman kimi istifadə edilmə məqsədilə becərilir.

Bir çox zərdəçal növündən yalnız üçü mətbəxdə istifadə olunur. Bunlardan, uzun zərdəçal (Curcuma longa) ədviyyatlar hazırlamaq üçün istifadə olunur. İkinci növ, Curcuma aromatica, adətən qənnadı istehsalında istifadə olunur və uzun zərdəçaldan daha yüksək qiymətləndirilir. Üçüncü növ, Curcuma zedoaria, adətən kiçik parçalara kəsilən kök olaraq istifadə olunur və uzun zərdəçalı əvəz edir. Bu üç növə Hind zəfəranı da deyilir. Dördüncü növ, Curcuma leucorrhizae, adətən nişasta istehsalında istifadə olunur və qida məhsulundan daha çox sənaye məqsədilə istifadə olunan bitkidir.

Zərdəçal tərkibinə görə insan orqanizmi üçün faydalı xüsusiyyətlərə malikdir. Zərdəçal efir yağları və fosfor, dəmir, yod, kalsium, xolin, həmçinin B (B1, B2, B5), C və K vitaminləri ilə zəngindir. Bitki iltihab əleyhinə və antioksidant xüsusiyyətlərə malikdir, beyin fəaliyyətini yaxşılaşdırır, ürək-damar xəstəliklərini və xərçəng riskini azaldır. Zərdəçal Alzheimer xəstəliyinin qarşısını almaq, artrit zamanı kömək etmək və depressiya ilə mübarizə aparmaq üçün istifadə edilir. Ədviyyatın tərkibindəki antioksidantlar orqanizmi oksidləşmədən və sərbəst radikallardan qoruyur, bununla da qocalmanın qarşısını alır. Kollagen istehsalını stimullaşdırmaqla, ədviyyat dərinin qocalmasını yavaşladır və sızanaqlar zamanı görünüşü yaxşılaşdırır. Zərdəçal qanın laxtalanmasına da müsbət təsir göstərir.

Zərdəçal suyu bədəndən toksinləri çıxarmağa kömək edir, ümumi əhvalı yaxşılaşdırır və enerji səviyyəsini artırır. Zərdəçal suyu eləcə də arıqlamaq prosesinə kömək edir, bu da əlavə çəkini atmaq istəyənlər arasında məşhur seçimdir. Hindistanda zərdəçal güclü vitamin içkisi hazırlamaq üçün tez-tez süddə qarışdırılır.

Ancaq zərdəçalın da bir sıra əks göstəriciləri var ki, onlara da diqqək etmək lazımdır.



Zərdəçal allergiyaya səbəb ola bilər. **Qandurulaşdırıcı dərmanlar qəbul edənlərin pəhrizindən çıxarılmalıdır.** Ədviyyat şəkər səviyyəsini aşağı saldığından, antidiabetik dərmanlar qəbul edərkən istehlak edilməməlidir. Digər dərman qəbul edənlər də zərdəçalı ehtiyatla pəhrizlərinə daxil etməlidirlər. Əvvəlcə həkimə müraciət etmək vacibdir.

Zərdəçal böyrəklərin, öd kisəsinin və digər orqanların müəyyən xəstəliklərində də əks göstəricilərə malik ola bilər.

# TBİLİSİDƏ TƏNTƏNƏLİ NOVRUZ ŞƏNLİYİ KEÇİRİLİB



***Tbilisinin mərkəzində Novruz bayramına həsr olunmuş tədbir keçirilib.***

Tədbir Tbilisi Meriyası, Gürcüstan Azərbaycanlılarının Ağsaqqallar Şurası (sədr — İsak Novruzov) və Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinin (direktor —Leyla Əliyeva) təşkilatçılığı ilə baş tutub.

Tədbirdə Tbilisi meri Kaxa Kaladze, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Qazaxıstan, Türkmənistan və Türkiyə səfirləri, həmçinin Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət naziri Tea Axvlediani iştirak ediblər.

Bayram şənlikləri çərçivəsin-də Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və digər qo-naqlar Novruzun adətlərindən biri olan yumurta döyüşdürmə mərasiminə qatılıblar. Tədbir çərçivəsində Novruza aid müxtəlif sərgilərə də baxış keçirilib.

Mərasimdə Gürcüstanda yaşayan azərbaycanlı icmasının nümayəndələri, mədəniyyət xadimləri və rəsmi şəxslər iştirak edərək, Novruzun əhəmiyyətindən danışıb və bayram münasibətilə təbriklərini çatdırıblar.

Tbilisi Meriyası tərəfindən təşkil edilən tədbirdə Novruzun simvolları nümayiş etdirilib, baharın gəlişi musiqi və rəqslərlə qeyd olunub. Tədbirin sonunda iştirakçılar milli yeməklərdən dadaraq bayram abhavasını birlikdə yaşayıblar.



# SARTİÇALA MUĞANLI KƏNDİNDƏ UNİKAL NOVRUZ KARNAVALI



***Qardabani bələdiyyəsinin Muğanlı kəndində Novruzun gəlişi fərqli və unudulmaz mərasimlə qeyd edilir.***

Burada bayram yalnız tonqal qalanmaqla, yumurta döyüşdürməklə və şirniyyat paylamaqla yekunlaşmır.

Kənd sakinlərinin inancına görə, əgər martın 21-də Novruzu qeyd etdikdən sonra martın 22-i bayram şənliklərinə xüsusi karnavalla yekun vurulmasa, Novruz tam başa çatmış hesab edilmir. Muğanlıda bəlkə də yüz illərdir davam edən bu ənənə indi daha çox diqqət çəkir və maraq doğurur.

Mart ayı başlayandan kəndin cavanları müxtəlif maskalar taxaraq küçələrdə dolaşır. Onlar insanlara baharın gəlişini xəbər verib, bayram hazırlıqlarına başlamağın vacibliyini xatırladırlar. Mart 21-də Novruz bayramı qeyd edildikdən sonra, martın 22-də sübh tezdən kənd meydanında hazırlıqlara başlanılır. Meydan bəzədilir, milli musiqilər səsləndirilir və kənd sakinləri, qonaqlar bayram yerinə toplaşmağa dəvət olunur.

Bayramın ən maraqlı hissəsi isə kəndin xüsusi seçilmiş kişilərinin maskalanaraq müxtəlif obrazları canlandırmasıdır.

Karnaval iştirakçıları öncədən bir evdə toplaşaraq hazırlaşır. Onların arasında şah obrazı xüsusi yer tutur. Şah qışı, onun ordusu isə qışın sərtliyini təmsil edir.

Meydana daxil olan şah və ordusu kənd sakinlərinə qışın sərtliyini hiss etdirir. Onlar rəmzi olaraq insanlardan xərac alır, ödəməyənləri isə simvolik şəkildə cəzalandırırlar. Amma bu, kimsəni incitmir, əksinə, şən bir oyuna çevrilir. Toplanan vəsait isə kəndin ehtiyaclarına sərf olunur.

Şah və ordusu meydanda əyləncələr təşkil etdikdən sonra növbə gəlini atlandırmağa çatır. Gəlin və bəy meydanda təntənəli şəkildə qarşılanır. Onlar yazın gəlişini, bolluq və bərəkəti simvolizə edirlər. Şahın taxtına əyləşən gəlin meydanda toplaşan insanlara şirniyyat səpir. Bu, artıq yazın qışa qalib gəldiyini və bolluq-bərəkətin qapıda olduğunu bildirir. Daha sonra gəlin və bəy taxtdan düşür, bununla da karnaval başa çatır.

Muğanlı kəndində bayram günü qonaq gələnlər xüsusi hörmətlə qarşılanır. Qaydalara görə, heç kim sübh tezdən yemək yemədən karnavala buraxılmır. Kəndin imkanlı insanları bu mərasimin təşkilinə xüsusi dəstək göstərir, hər kəsin yüksək əhval-ruhiyyədə bayramı qeyd etməsi üçün çalışırlar.



# RAMAZAN BAYRAMINIZ MÜBARƏK!

*"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi. Bəlkə, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!"*

*(Əl Bəqərə surəsi, 183-cü ayə)*



İslamın müqəddəs bayramları içərisində oruclug bayramı mühüm yer tutur. Bu bayramın tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 623-cü il) başlanır. Oruc Ramazan ayında tutulduğu üçün ona "Ramazan orucu" da deyirlər.

İslamda ilin ayları arasında Ramazan ayı ən şəfaqətli və müqəddəs ay hesab edilir. Onu məcazi şəkildə "on bir ayın sultanı" da adlandırırlar, çünki bu ayın gecələrinin birində müqəddəs kitabımız olan Qurani-Kərim nazil olmuşdur. Həmin gecəyə "qədr" və ya "ehya" gecəsi deyilir. Qədr gecəsinin konkret olaraq hansı günə təsadüf edildiyi bilinmir. Bununla bağlı müxtəlif rəvayətlər vardır. Amma ümumi fikir belədir ki, qədr gecəsi Ramazan ayının son on gecəsindən biridir, həm də tək günün gecəsidir. İslamşünasların fikrincə, ehtimal olunan bu gecə Ramazan ayının 19, 21, 23, 25 və 27-sinə təsadüf edir. Müqəddəs Qurani-Kərimin "Qədr" surəsində qədr gecəsi haqqında belə yazılmışdır: "Biz bu gecə həqiqətən qüdrət, əzəmət hədiyyə etmişik, bu gecə min aydan da qüdrətlidir, mələklər aşağı enərək, Allahın əmrini gözləyirlər, bu gecə şəfəqin doğmasına qədər aləmdir, sübhdür".

Oruclug Ramazan ayında təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Qurani - Kərimdə yazılır: "Sübh açılınca, ağ sap qara sapdan fərqlənməyincəyə qədər yeyib-için, sonra gecəyə kimi orucunuzu tamamlayın".

Qeyd edək ki, müsəlmanlar ən mühüm ibadətlərini, o cümlədən orucu və həcci, Fitr və Qurban bayramlarını hicri-qəməri təqviminə əsasən yerinə yetirirlər. Ayın isə Günəşə və Yerə nisbətən vəziyyətindən asılı olaraq müxtəlif səfhələri (ayın görünən xarici tərəflərindən hər biri) olur. Bu səfhələrdən biri də hilaldır, yəni təzə aydır. Qurani Kərimdə deyilir ki, "(Ya Məhəmməd!) Səndən hilallar barədə soruşurlar. De: Bunlar insanlar və həcc üçün vaxt ölçüləridir". İnsanlar vacib ibadətlərinə ayın hilalına əsasən əməl etmişlər: hilalı görəndə orucların başa vurmuşlar. İki təzə ay arasında keçən müddət 29,5 orta Günəş gününə bərabərdir ki, bu da bir ay edir. Qədim ərəblər bunu vaxt vahidi kimi götürərək bəzi ayları 29, bəzilərini isə 30 gün qəbul etmişlər.

Ay ili biri 29, digəri isə 30 gün sürən 12 aydan ibarətdir. Ay (qəməri) təqvimi də buradan yaranmışdır. Bu təqvimə əsasən ilin uzunluğu 354 gün sürür. İkinci xəlifə Ömərin dövründə qərara alındı ki, tarixləri Məhəmməd peyğəmbərin (s.ə.s) Məkkədən Mədinəyə hicrəti ilindən hesablasınlar. Beləliklə, Məhərrəm ayı ilə başlanan hicri-qəməri təqvimi yarandı. Bütün müsəlman ibadətlərinin, bayram və mərasimlərinin vaxtı bu təqvimə əsasən müəyyən edilir. Ay təqvimi Günəş təqvimindən 10-11 gün qısa olduğu üçün hər bir müsəlman ibadətinin tarixi işlətdiyimiz Günəş təqviminə nisbətən 10-11 gün irəli keçir.

Ay təqvimində də tarixlər sabitdir, bu tarixlər yalnız Günəş təqviminə nisbətən yerini dəyişir. Bizim Günəş təqviminə alışmış şüurumuz haradasa qeyri-müəyyənlik görür. İslam bayram və ayinlərinin müxtəlif fəsillərə təsadüf etməsində isə ilahi bir hikmət vardır.

Ramazan ayı oruclug, insan nəfsinin paklığı, eyiblərin və naqisliyin islah olunması, ağıl, iman və iradənin saflaşması dövrüdür. İnsan bu ayın dua və ibadətləri ilə eyiblərdən saflığa, saflıqdan kamilliyə doğru gedir. Bu ay ruhun tərəqqisi, Allaha tərəf pərvaz etməsidir.

Ramazan ayında fani varlıqlar sanki savaş meydanına çevrilir. İmanla nəfs bu meydanda çarpışır. Nəfs hər imanlı işi udmaq, yeyib-içmək istəyir, pis vərdişlərin davamını diləyir. İnanclar mətanətlə buna qarşı çıxır, dil yalandan, göz və könül haramdan uzaqlaşır.

Oruclug vaxtı gündüz yemək, içmək, siqaret çəkmək olmaz. Bunlardan yalnız uşaqlar, xəstələr, hamilə qadınlar, döyüşçülər, əsirlikdə olanlar və səyyahlar azad olunurlar. Oruclu adam sürmə çəkməməli, ətirlənməməli, tütün, gül iyləməməli və orucu pozan digər hərəkətlərdən imtina etməlidir. Oruclug dövründə insan dünya ləzzətindən çəkinir, gündəlik fəaliyyətini davam etdirsə də, özünü Allaha ibadətə həsr edir, nəfsini təmiz saxlayır və bu vaxt şeytan onun qəlbinə yol tapa bilmir. Peyğəmbərimiz (s.ə.s) buyurur ki, Ramazan ayı gələndə isə cənnətin qapıları açılar, cəhənnəmin qapıları bağlanar, şeytanlar da zəncirdə olar.

Döyüşdə və ya əsirlikdə olduğuna görə oruc tutmayanlar sonra münasib bir vaxtda onun əvəzini (qəzasını) tutmalı və ya fidyə verməlidirlər. Orucu qəsdən pozanlar isə onun əvəzini tutmaqla yanaşı, tövbə etməli və kəffarəsini ödəməlidirlər. Kəffarə isə 60 gün oruc tutmaq, yaxud 60 yoxsulu yedirtməkdir. 60 günlük kəffarə orucuna bir günlük qəza orucu da əlavə olunur.

Oruclugun başa çatdığı gün Fitr bayramı adlanır. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar. Bayram günü hər kəs öz himayəsində olanlar üçün təqribən 3 kq buğda, yaxud xurma və ya kişmiş miqdarında kasıblar üçün fitrə zəkatı verməlidir.

Oruclug insanlara öz iradələrini, dözümlülüyünü yoxlamaq imkanı verir, onları paklığa, xeyirxahlığa dəvət edir.

"Qabusnamə"nin müəllifi Keykavus ibn İsgəndər oğluna nəsihət edərək yazır: "Ey oğul!... bil və agah ol ki, Allah-Təalanın sənin ac və ya toxluğuna ehtiyacı yoxdur. Oruc Allah tərəfindən sənin var-dövlətinə və özünə vurulan möhürdən ibarətdir. Bu möhür mal və bədənin yalnız bir hissəsinə deyil, bəlkə, bütün üzvlərinə vurulur: əl-ayağa, gözə, dilə, qulağa, qarına.

Ey oğul, bil və agah ol: orucluğun ən böyük məqsədi ondadır ki, sən gündüz yemədiyini ehtiyacı olanlara verəsən ki, zəhmətinin faydasını görmüş olasan, elə bu zəhmət ona görə lazımdır ki, onun xeyri ehtiyacı olana çatsın".

Oruclugla bağlı dini ayinlər əvvəlki səmavi dinlərdə də (yəhudilik, xristianlıq) mövcud olmuşdur. Amma digər dinlərdən fərqli olaraq İslamda oruclug xüsusi əhəmiyyət daşıyır. İslam qaydalarına əsasən yetkinlik yaşına çatmış hər bir müsəlmana oruc tutmaq vacibdir. Bu ibadət ayini ilə bağlı Məhəmməd peyğəmbərin (s.ə.s) xeyli hədisi vardır. Həmin hədislərin birində deyilir ki, Adəm oğlunun hər bir əməli özü üçündür. Təkcə orucdan başqa — o, Allah üçündür, əvəzini də Allah verir.

Bütün xalqımızı qarşıdan gələn Ramazan bayramı münasibəti ilə səmimi qəlbdən təbrik edir, sağlıq, xoşbəxtlik və uğur dolu günlər arzulayırıq.

**Mənbə: www.anl.az**

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



**28 mart**

•1868 — Maksim Qorki, rus yazıçı, anadan olub.
•1930— Türkiyədə Konstantinopol "İstanbul" və Anqora "Ankara" adlandırılıb.
•1969—Yunan şairi və Nobel mükafatı laureatı Yorqos Seferis BBC World Service-ə Yunanıstanda xuntaya qarşı çıxan məşhur bəyanatla çıxış edib
• Slovakiya — Müəllim Günü
•Serbiya—Konstitusiya Günü

**29 mart**

•1879—Moskvanın Malıy Teatrında Çaykovskinin "Yevgeni Onegin" operasının premyerası olub.
•1928—Akaki Bakradze, gürcü tənqidçi, sənətşünas, ictimai xadim, anadan olub.
•1973—Vyetnam müharibəsi - Son Amerika əsgərləri Cənubi Vyetnamı tərk edib.
•1978—**Qiorqi Papaşvili gürcü yazıçı və heykəltəraş vəfat edib.**
•2004—Bolqarıstan, Estoniya, Latviya, Litva, Rumıniya, Slovakiya və Sloveniya NATO-ya üzv olub.
•2016—Nana Mçedlidze, gürcü kinorejissor, vəfat edib.
•ABŞ—Vyetnam Müharibəsi Veteranları Günü
•Tayvan— Gənclər Günü

**30 mart**

•1822—ABŞ-də Florida ştatı yaradılıb.
•1896—Lado Qudiaşvili, gürcü rəssam və qrafikaçı, anadan olub
•1918 — Mart soyqırımı və ya Mart hadisələri — 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı, Gəncə və İrəvan quberniyalarının müxtəlif bölgələrində və digər ərazilərdə Bakı Sovetindən və Daşnaksütundan olan erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğın.
•Fələstin — Torpaq Günü

**31 mart**

•1939—Zviad Qamsaxurdia, Gürcüstan prezidenti, anadan olub.
•1979—Son İngilis əsgəri Malta adalarını tərk edib.
•1983 — Karandaş, Sovet təlxəyi, vəfat edib.
•1999—Boris Yeltsin Rusiya prezidenti vəzifəsindən istefa verib.
•Azərbaycan — **Azərbaycanlıların Soyqırımı Günü**

**1 aprel**

•1873—Sergey Raxmaninov, rus bəstəkar, anadan olub
•1939—İspaniyada vətəndaş müharibəsi: İspaniya generallisimusu Fransisko Franko respublikaçı qüvvələrin sonuncusunun təslim olduğunu və İspaniyada vətəndaş müharibəsinin başa çatdığını elan edib.
•1945—ABŞ qoşunları Okinava adasını (Yaponiya) işğal edib.
•1979—**İran İslam Respublikası elan edilib.**
•2010—Hindistan Uşaqların Pulsuz və Məcburi Təhsil Qanununu qəbul edən dünyada 135-ci ölkə olub.
•2010—Britaniya hökuməti ölkənin mülki kosmik fəaliyyətlərini idarə etmək üçün Birləşmiş Krallıq Kosmik Agentliyinin yaradılmasını elan edib.
•Ümumdünya gülüş günü
• Tailand — Dövlət Qulluğu Günü
•Cənubi Afrika— Ailə Günü

**2 aprel**

•670 — Həsən ibn Əli, Şiə xəlifi və imamı
•1840 — Emil Zolya, fransız yazıçı, anadan olub.
•1948—Nestan Sulava, gürcü alim, anadan olub
•1965—Bütün Latın Amerikasının ən böyük yayım şirkəti olan Globo TV Braziliyada yaradılıb.
•1982—Folklend müharibəsi: Argentina Folklend adalarını işğal edib.
•Dünya— Beynəlxalq Uşaq Kitabı Günü

**3 aprel**

•1922—İosif Stalin Sovet İttifaqı Kommunist Partiyasının ilk Baş katibi olub.
•1973—İlk mobil telefon bağlantısı Nyu Yorkda qurulub.
•1975—Bobbi Fişer Anatoli Karpova qarşı şahmat matçından imtina edib və bununla da ona Dünya Çempionu titulunu verib.

## QİORQİ PAPAŞVİLİ



***Gürcü-amerikalı yazıçı və heykəltəraş 23 avqust 1898-ci ildə Gürcüstanın Duşeti rayonunun Kobiaantkari kəndində anadan olmuşdur.*** Gəncliyində qılınc ustası və ornamental dəri işləmələri üzrə təcrübə keçmişdir. I Dünya Müharibəsi zamanı Rusiya İmperator Ordusunda snayper kimi xidmət etmişdir. Müharibədən sonra müstəqil Gürcüstan Demokratik Respublikasına qayıtmış və 1921-ci ildə Gürcüstanın Sovetlər tərəfindən işğalı zamanı general Giorgi Kvinitadzenin komandanlığı altında Gürcüstan Ordusunda döyüşmüşdür. Məğlubiyyətdən sonra Türkiyəyə getmiş və iki il orada yaşamışdır. 1923-1924-cü illərdə ABŞ-yə köçmüş və ömrünün sonuna qədər orada yaşamışdır.

ABŞ-də həyat yoldaşı Helen Veyt ilə tanış olmuş və 1933-cü ildə evlənmişdir. Birlikdə onun ən məşhur əsəri mühacir kimi təcrübələrini əks etdirən "Anything Can Happen" ("Biri Qafqazdan", 1945) adlı avtobioqrafik kitab yazmışlar. Kitab Gürcüstan mədəniyyəti və mühacir həyatı haqqında maraqlı təsvirlər təqdim edir. Bu əsər ABŞ-də 600,000-dən çox, dünya üzrə isə 1.5 milyon nüsxə satılmış və 15 dilə tərcümə edilmişdir. 1952-ci ildə kitab əsasında eyni adlı film çəkilmiş və Beynəlxalq Anlaşmanı Təşviq edən "Qızıl Qlobus" Mükafatını qazanmışdır.

Papaşvili həmçinin "Yes and No Stories - A Book of Georgian Folk Tales" (1946), "Dogs and People" (1954), "Thanks to Noah" (1956) və "Home and Home Again" (1973) kimi əsərlərin həmmüəllifidir. Bu kitablar Gürcüstan folkloru və mühacir həyatının müxtəlif aspektlərini əks etdirir. Onun heykəltəraşlıq sahəsindəki işləri də mühüm əhəmiyyət daşıyır.

Yazıçılıq fəaliyyətindən əlavə, Qiorqi Papaşvili bacarıqlı heykəltəraş idi. Əsas mövzuları təbiətdən ilhamlanaraq heyvanlar, çiçəklər və insan fiqurlarını əhatə edir. Ən məşhur əsərləri arasında "War's End" (1946), "Pigeons" (1948), "Ram" (1951) və "Butterfly" (1952) var. Əsərləri ABŞ-nin müxtəlif muzeylərində və ictimai yerlərində sərgilənmişdir. Həm yazıçı, həm də incəsənət xadimi kimi iki sahədə uğur qazanması onun çoxşaxəli yaradıcılığını göstərir.

Qiorqi Papaşvili 29 mart 1978-ci ildə Kaliforniyanın Kambria şəhərində vəfat etmişdir.

## AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ




1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə daşnak erməni silahlı dəstələri azərbaycanlıları kütləvi şəkildə vəhşicəsinə qətlə yetirmişlər. Rəsmi mənbələrə əsasən, bu soyqırımın nəticəsində 12 minə yaxın azərbaycanlı amansızcasına öldürülmüş, on minlərlə insan itkin düşmüşdür.

İrəvan quberniyası, Şərur-Dərələyəz, Sürməli, Qars və digər ərazilərdə azərbaycanlıların qırğınının fəal iştirakçılarından biri olmuş erməni zabiti Ovanes Apresyanın xatirələri əsasında amerikalı aqronom Leonard Ramsden Hartvill "İnsanlar belə imişlər" adlı kitab yazmışdır. Ovanes Apresyan kitabın müəllifi ilə söhbəti zamanı ermənilərin, ingilislərin və rusların yardımı ilə öz məqsədlərinə çatdıqlarını qeyd edərək, təkcə Bakıda Mart qırğını zamanı iyirmi beş min azərbaycanlının qətlə yetirildiyini bildirmişdir.

Bu hadisələrin dəhşətini göz önünüzə gətirməyiniz üçün 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Demokratik Respublikası hökumətinin, Fövqəladə İstintaq Komissiyasının materiallarında göstərilir ki:

•1918-ci ilin mart-aprel aylarında Şamaxıda 8 minə qədər dinc sakin qətlə yetirilimişdir. Şamaxı Cümə məscidi də daxil olmaqla əksər mədəniyyət abidələri yandırılmış və uçurulmuşdur.

•1918-ci il aprelin 29-da Gümrü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq son nəfərinədək məhv edilmişdir.

•Erməni silahlı dəstələri Zəngəzur qəzasında 115 azərbaycanlı kəndini məhv etmiş, 10068 azərbaycanlı öldürülmüş və ya şikəst edilmiş, 50000 azərbaycanlı qaçqın düşmüşdür.

•İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı məhv edilmiş, kəndlər isə yerlə yeksan edilmişdir. Erməni silahlı dəstələri daha sonra Qarabağa yürüş etmiş, 1918-1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kənd dağıdılmış, əhalisi məhv edilmişdir.

Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi 26 mart 1998-ci il tarixdə 31 martın Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunması barədə Sərəncam imzalamışdır. Bu gün hər il şəhidlərin xatirəsinə ehtiram olaraq qeyd olunur. Bu faciə tarixində Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı aktı kimi dərin iz qoymuş və milli yaddaşın mühüm hissəsinə çevrilmişdir.

Soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad edir, onlara Allahdan rəhmət diləyirik.

## İRAN



İran—Qərbi Asiyada dövlət. İran şimal-qərbdən Azərbaycan və Ermənistan, şimaldan Xəzər dənizi, şimal-şərqdən Türkmənistan, şərqdən Əfqanıstan və Pakistan, cənubdan Fars körfəzi və Oman körfəzi, qərbdən Türkiyə və İraqla əhatə olunmuşdur. Paytaxtı və ən böyük şəhəri Tehran , ümumi sahəsi 1,648,195 kvadrat kilometr, əhalisinin sayı 83 milyon nəfərdən çoxdur. İran ərazi böyüklüyünə görə Yaxın Şərq regionunda ikinci, dünya ölkələri arasında on yeddinci, əhalisinin sayına görə isə on səkkizinci ölkədir. Ölkənin Avrasiyanın mərkəzində və Qərbi Asiyada yerləşməsi, həmçinin Hörmüz boğazına yaxınlığı ona geostrateji əhəmiyyət qazandırmışdır

**Tarixi:** İranın tarixi çox qədim dövrlərə gedib çıxır. Qədim Elam dövləti bu ərazidə formalaşan ilk sivilizasiyalardan biri olmuşdur. Daha sonra eramızdan əvvəl VI əsrdə II Kir tərəfindən Əhəmənilər imperiyası quruldu. Bu imperiya öz geniş əraziləri və möhtəşəm idarəetmə sistemi ilə tanınırdı. Eramızdan əvvəl dördüncü əsrdə İran ərazisinin Makedoniyalı İsgəndər tərəfindən işğal olunması nəticəsində burada Ellinizm mədəniyyəti kök saldı. İsgəndərin yürüşü nəticəsində Əhəmənilər imperiyasının süqutundan sonra bu torpaqlar müxtəlif dövlətlərin hakimiyyəti altına keçdi. VII əsrdə imperiya ərazisinin ərəblər tərəfindən işğal olunmasından sonra İranda mövcud olan yerli Zərdüştilik və Manixeizm dinləri İslam dini ilə əvəzləndi. İran İslamın qızıl çağına mühüm töhfələr vermişdir. 1502-ci ildə Səfəvilər dövləti İranın siyasi və mədəni tarixində mühüm rol oynadı və bu dövrdə şiə məzhəbi rəsmi dövlət dini elan edildi. XX əsrin sonlarında isə 1979-cu ildə baş verən İslam İnqilabı İran tarixində dönüş nöqtəsi oldu və ölkədə teokratik idarəçilik sistemi quruldu.



**Coğrafiyası:** İran olduqca mürəkkəb relyefə və iqlimə malikdir. Şimalda Xəzər dənizi sahillərində yaşıl meşələr və mülayim iqlim, cənubda isə Fars və Oman körfəzləri boyunca isti və rütubətli hava şəraiti üstünlük təşkil edir.

**Əhalisi:** Əhalinin 71,4 faizi şəhər əhalisidir. İran əhalisi etnik və mədəni baxımdan rəngarəngdir. Ölkədə əsasən farslar üstünlük təşkil etsə də, azərbaycanlılar, kürdlər, ərəblər, bəluçlar və lorlar kimi müxtəlif etnik qruplar da burada yaşayır. Hər bir etnik qrupun özünəməxsus adət-ənənələri, dili və mədəniyyəti İranın zəngin mədəni palitrasını formalaşdırır.

**Dini: İ**ranın dini mənzərəsi də diqqətəlayiqdir. Əhalinin 98%-i şiə müsəlmanlarıdır və İran dünyada şiəliyin əsas mərkəzi sayılır. Bununla yanaşı, sünni müsəlmanlar, xristianlar, yəhudilər və zərdüştilər də ölkənin dini müxtəlifliyinin bir hissəsidir.

**Mədəniyyəti:** Firdovsi, Sədi, Hafiz və Mövlana kimi dahi şairlər İran ədəbiyyatının incilərini yaratmış və onların əsərləri bəşəriyyətin mənəvi sərvəti sayılmışdır. İran musiqisi, incəsənəti və memarlığı öz dərinliyi və estetikasına görə seçilir. Minarəli məscidlər, tarixi saraylar və mozaika ilə bəzədilmiş divarlar İran memarlığının əvəzsiz nümunələrindəndir.

**Turizm:** İran öz tarixi abidələri və təbii gözəllikləri ilə fərqlənir. Persepolis xarabalıqları, İsfahanın möhtəşəm Naqş-e Cahan meydanı, Şirazın Hafiz məqbərəsi və Yazd şəhərinin qədim zərdüşti məbədləri ölkənin zəngin irsindən xəbər verir. Xüsusilə, tarixi "İpək Yolu"nun əsas dayanacaqlarından biri olan İran, əsrlər boyu tacirlər, səyyahlar və alimlər üçün mühüm dayanacaq olmuşdur.

**İqtisadiyyatı:** Ölkə dünyada ən iri neft və qaz ehtiyatlarına sahib olan dövlətlərdən biridir. Eyni zamanda, xalçaçılıq, keramika və əl işləri İranın iqtisadi və mədəni sərvətlərindən sayılır. İran xalçaları öz naxışları və keyfiyyəti ilə dünya bazarında xüsusi yer tutur.

**Siyasəti:** Siyasi sisteminə gəldikdə isə, İran İslam Respublikası teokratik quruluşa malikdir. Ölkədə ali rəhbər ən yüksək siyasi və dini hakimiyyət sahibidir və mühüm qərarlar onun nəzarəti ilə qəbul edilir.

Tarixi irsini bu günə qədər qoruyub saxlayan İran, həm Yaxın Şərqdə, həm də beynəlxalq arenada mühüm rol oynayan dövlətlərdən biri olaraq qalmaqdadır.

GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"S A K A R T V E L O"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა



İDMAN İDMAN

## GÜRCÜSTAN ERMƏNİSTANI 6:1 HESABI İLƏ MƏĞLUB EDƏRƏK UEFA MİLLƏTLƏR LİQASININ B DİVİZİONUNDA YERİNİ QORUYUB




***"Dinamo Arena" stadionunda UEFA Millətlər Liqasının pley-off mərhələsinin cavab oyununda Gürcüstan milli komandası Ermənistan yığmasını 6:1 hesabı ilə məğlub edib.***

Oyunun ilk hissəsi Gürcüstan millisinin tam üstünlüyü ilə keçib və 5:0 hesabı ilə başa çatıb. İkinci hissənin əvvəlində Ermənistan millisi fərqi azaltsa da, görüşün sonunda meydan sahibləri daha bir qol vuraraq yekun hesabı müəyyənləşdiriblər.

Matçda qolları aşağıdakı futbolçular vurub:

Aroyan (avtoqol, 4-cü dəqiqə)
Mikautadze (14-cü dəqiqə)
Çakvetadze (23-cü dəqiqə)
Kiteişvili (27-ci dəqiqə)
Mikautadze (35-ci dəqiqə)
Sevikyan (48-ci dəqiqə)
Kvaratsxelia (63-cü dəqiqə).

Xatırladaq ki, ilk oyunda Gürcüstan millisi Yerevanda Ermənistanı 3:0 hesabı ilə məğlub etmişdi.

Beləliklə, iki oyunun nəticəsinə əsasən Gürcüstan millisi UEFA Millətlər Liqasının B divizionunda yerini qoruyub. İyun ayında yoldaşlıq oyunları keçiriləcək, sentyabr ayından isə Gürcüstan yığması dünya çempionatının seçmə mərhələsində mübarizəyə başlayacaq.

## YENİ NƏŞR




Tanınmış qələm adamı, Gürcüstanın əməkdar jurnalisti ötən il 104 yaşında dünyasını dəyişmiş Dünyamalı Kərəmin (Dünyamalı Kərəm oğlu Əliyevin) bu yaxınlarda Bakıdan "Borçalı" nəşriyyatında (Baş direktoru Müşfiq Borçalıdır) "Borçalı oğlu" adlı kitabı nəfis şəkildə işıq üzü görmüşdür. Kitaba müəllifin əvvəlki kitablarına daxil edilməmiş Nəsihətamiz sözləri, sevgi-məhəbbət şeirləri, bayatıları, təmsilləri və poeması daxil edilmişdir.

Kitabı nəşrə müəllifin oğlu Xaqani Əliyev hazırlamışdır. Redaktoru Hüseyn Əfəndiyev, kompüter operatorları Səbinə Xaqaniqızı, Taliyə Hüseynqızı və Mehriban Xaqaniqızıdır. Bu kitabın da Dünyamalı Kərəmin əvvəlki kitabları kimi tələbkar oxucular tərəfindən rəğbətlə qarşılanacağına ümid edirik.

**"Gürcüstan"**

## BAŞSAĞLIĞI

Bolnisi Bələdiyyəsinin Talaveri (Faxralı) kənd sakinləri Səyyad Allahverdiyev, Vahid Əhmədov, Vəli Göyüşov, Validə Nuriyeva, Güloza Ayvazova, Səadət Namazova və Sevil Mahmudova sabiq sinif yoldaşı, görkəmli alim



**Elxan Hüseynqulu oğlu Məmmədlinin**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

"Gürcüstan" qəzetinin kollektivi həmyerlimiz, tanınmış folklorşünas- alim, AMEA-nın Folklor İnstitutunun şöbə müdiri

**Elxan Hüseynqulu oğlu Məmmədlinin**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və doğmalarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

Marneuli Bələdiyyəsinin Kürüstü Kəpənəkçi kənd sakinləri Suddarxan Kazımov, Rövşən Nəsiboğlu, Rüstəm Dəmirçiyev və Savalan Osmanlı məşhur folklorşünas-alim, Azərbaycanın əməkdar mədəniyyət işçisi

**Elxan Hüseynqulu oğlu Məmmədlinin**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

"Gürcüstan" qəzetinin kollektivi və Firdovsi İskəndərov, Nadir Bayramlı, Nəsib Nəsibov, Cəlal Əliyev, İsmixan Əliyev, Zülfət Tuştiyeva, Səbinə Qasımova Qardaban Bələdiyyəsinin Aşağı Kəpənəkçi kənd ictimai məktəbinin sabiq direktoru

**Elşad Nazir oğlu Həsənovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun əzizlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

## TƏBİƏTİN MƏSUM ZƏRİFLİYİ



**Foto E.Şahvələdindir.**

BİRAZ DA GÜLƏK

## 1 APREL ÜMUMDÜNYA GÜLÜŞ GÜNÜDÜR

Bir kişi rəhmətə gedir. Oğlu gəlir mollanın yanına və xahiş edir ki, atama Quran oxu. Molla soruşur:-Bir də görüm, atan namaz qılırdımı?

Oğlan:

— Xeyr, atam namaz qılmırdı. Ancaq namaz qılanlara baxıb ləzzət alırdı.

Molla:

— Oğul, atan oruc tuturdumu?

Oğlan:

— Xeyr, atam oruc da tutmurdu. Ancaq oruc tutanlara baxıb ləzzət alırdı.

Oğlan:

— Molla əmi, indi mənim atam cənnətdə olar yoxsa cəhənnəmdə?

Molla:

—Oğul, sənin atan cənnətlik deyil. Amma cənnətdə olanlara baxıb ləzzət alır.

**Təqdim etdi: Şamil Ziyadəliyev**



## ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !

## "GÜRCÜSTAN"" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayənizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişəyaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbəil, nəsilbənəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürurla dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin yayım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslər-fərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yerlərdə qəzetin müxbirləri ilə və ya E-mail:Gurcustan_1921@mail.ru elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzindəabunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

Müdiriyyət.

გაზეთის ანგარიშის ნომერი
შპს „გურჯისტანი“ ს/კ 203863792
ანგარიშის **№ GE03LB0111185703773000**
სს ლიბერთი ბანკი **SWİFT: LBRTGE22**

Baş redaktor: Xələddin YOLÇUYEV

Redaktor müavini: Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.